# Vətənpərvərlik tərbiyəsi mövzusunda konfrans

***Noyabrın 30-da Qəbələ Rayon İcra Hakimiyyətinin və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə "Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclərin vətənpərvərlik tərbiyəsində rolu" mövzusunda konfrans keçirilib. Qəbələ Mədəniyyət Mərkəzində təşkil olunan tədbirdə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, gənclər və idman nazirinin müavini İntiqam Babayev, təhsil ocaqlarının idarə, müəssisə və təşkilatların əmək kollektivlərinin, eləcədə rayon ictimaiyyətinin nümayəndələri iştirak edib.***




Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, ümummilli liderin əziz xatirəsini ehtiramla yad ediblər.

Konfransda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Sonra torpaqlarımızın bütövlüyü uğrunda şəhid olmuş Vətən oğullarının müqəddəs xatirəsi bir dəqəqəlik sükutla anılıb.

Giriş nitqi ilə konfransda çıxış edən Səbuhi Abdullayev ümummilli liderimiz Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin təməl prinsiplərindən olan milli ideologiyamızın və mənəvi dəyərlərimizin yaşadılması üçün bu gün ölkəmizdəki bütün xalqların vahid bayraq, vahid milli mənafelər, vahid hədəflər uğrunda sıx birləşdiyini bildirib. Gənc nəslin ölkənin ictimai-siyasi həyatında mühüm rol oynadığını, gənclərimizin dövlət idarəçiliyinin bütün strukturlarında təmsil olunduğunu vurğulayan başçı azərbaycançılıq ideyası və onun gənclər üzərinə qoyduğu məsuliyyətdən ətraflı danışıb.

Qəbələdə həyata keçirilən İqtisadi, sosial və beynəlxalq layihələrdən söz açan Səbuhi Abdullayev son illərdə rayonda aparılan abadlıq-quruculuq işlərindən geniş bəhs etmiş, xeyli sayda sosial obyektlərin, bağça və məktəblərin tikilərək istifadəyə verildiyini, hazırda isə bir sıra obyektlərdə inşaat işlərinin davam etdirildiyini və yaxın vaxtlarda istismara veriləcəyini vurğulayıb.

RİH-nin başçısı ölkəmizin hər yerində olduğu kimi Qəbələ rayonunda da gənclərlə bağlı dövlət siyasətinin uğurla həyata keçirildiyini qeyd edib, qəbələli gənclərin istər elm, istərsə də idman və digər sahələrdə rayonumuzu layiqincə təmsil etdiyini diqqətə çatdırıb.



Səbuhi Abdullayev Prezident cənab İlham Əliyev tərəfindən ölkədə milli dəyərlərə söykənən davamlı və ardıcıl gənclər siyasətinin həyata keçirildiyini bildirib. Bütün bunların milli dövlətçiliyimizin böyük uğuru, gənclərimiz arasında tarixi-mənəvi ənənələrin qorunub-saxlanılması kimi qiymətləndirildiyini deyən rayon icra hakimiyyətinin başçısı bu xəttin azərbaycançılıq və vətənpərvərlik prinsiplərinin başlıca istiqamətlərindən biri hesab edildiyini qeyd edib.

Səbuhi Abdullayev Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və yaxından köməkliyi ilə rayonumuzda hər il keçirilən beynəlxalq musiqi və kino festivallarının, rəsm sərgilərinin, idman yarışlarının və digər bu kimi tədbirlərin əsas iştirakçılarının məhz gənclər olduğunu diqqətə çatdıraraq, Qəbələnin artıq dünya gəncliyinin beynəlxalq mərkəzlərindən birinə çevrildiyini qeyd edib.

Sonra gənclər və idman nazirinin müavini İntiqam Babayev çıxış edərək dövlətçiliyimizin gələcəyinin etibarlı təminatının sağlam gənclik yetişdirməkdən asılı olduğunu deyib. Heydər Əliyevin azərbaycançılıq ideologiyasının milli birlik yaratdığını söyləyən nazir müavini ölkəmizin ictimai-siyasi həyatında baş verən proseslərdə gənclərin rolundan danışıb. O, bu gün gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi, onlarda vətənpərvərlik hisslərinin artırılması istiqamətində cəmiyyətin hər bir fərdinin üzərinə çox mühüm vəzifələr düşdüyünü söyləyib.

Daha sonra konfransda millət vəkili Şahin İsmayılov, YAP Gənclər Birliyinin sədri Seymur Orucov, Gənclər və İdman Nazirliyi yanında İctimai Şuranın sədri Nurəddin Mehdiyev, Azərbaycan Respublikası Gənclər Təşkilatı Milli Şurasının sədri Seymur Hüseynov, Qəbələ şəhər 4 nömrəli tam oorta məktəbin müəllimi Mətanət Mahmudova, Heydər Əliyev Mərkəzinin direktoru Zərxanım Ağayeva, "Qəbələ Regional Gənclərin Resurs Mərkəzi" İctimai Birliyinin icraçı direktoru Anar Məhərrəmov, Turizm və Otelçilik üzrə Peşə Tədrisi Mərkəzinin müəllimi Vüsalə Qəribova və digərləri çıxış edərək ümummilli lider Heydər Əliyevin azərbaycançılıq idealogiyasının gənclərin vətənpərvərlik tərbiyəsində rolundan danışıb, gənclərin azərbaycançılıq ruhunda yetişməsinin, onlara vətənpərvərlik hisslərinin aşılanmasının və inkişaf etdirilməsinin bu gün dövlət siyasətinin ən vacib istiqamətlərindən biri olduğunu vurğulayıblar.

Yekunda Gənclər və İdman Nazirliyi tərəfindən tələbələr arasında "Azərbaycançılıq və gənclik", "Multikultural dəyərlər və gənclik" mövzularında keçirilən esse müsabiqələri qaliblərinin mükafatlandırılması mərasimi olub.

Konfrans Azərbaycanın populyar ifaçılarının iştirakı ilə təşkil edilən geniş konsert proqramı ilə başa çatıb.

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Rabitə işçiləri günü qeyd olundu

Qəbələ Rayon Telekommunikasiya Qovşağının və poçt filialının kollektivləri Rabitə İşçiləri Günü münasibətilə Qəbələ şəhərinin mərkəzidəki Heydər Əliyev bağında ulu öndərin abidəsi önünə gül-çiçək dəstələri düzmüş, dahi rəhbərin xatirəsinə ehtiramlarını bildirmişlər. Sonra Rabitə İşçiləri Gününə həsr olunmuş toplantı keçirilmişdir.

Toplantıda ölkədə poçt və rabitə işinin dünya standartları səviyyəsinə qaldırılması üçün ümummilli lider Heydər Əliyevin başlatdığı yolun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyindən, bu sahədə son illər respublikada və rayonda görülən işlərdən danışılmışdır.

**«Qəbələ»**

# Yeni təhsil mərkəzində

Qəbələ Peşə Təhsili Mərkəzində valideynlərlə görüş keçirilmişdir. Əvvəlcə mərkəzin tədris istehsalat işləri üzrə direktor müavini Camal Rəsulov valideynləri kabinə və laboratoriyalarla, kompüter otaqları ilə, yeni avadanlıqlarla, emalatxana və digər sahələrlə yaxından tanış etmişdir. Sonra görüş akt zalında davam etmişdir.

Direktor Azad Məmmədov görüş mərasimini açıq elan etmiş, valideynləri salamlamışdır. Direktor müavini Camal Rəsulov çıxış edərək şagird və valideynlərin vəzifələrindən söhbət açmış, yeni təhsil ocağında təlim-tərbiyənin yüksək səviyyədə təşkili üçün yaradılan şəraitdən danışmışdır. Toplantıda baş usta Səlim Mehdiyev, psixoloq Zenfira Hüseynova və informatika müəllimi Rübabə Məmmədova çıxış edərək yeni təhsil ocağının fəaliyyətindən, məktəblə valideynlərin əlaqəsindən söhbət açmışlar.

Valideynlərdən Şahismayıl İsmayılov və bu sətirlərin müəllifi çıxış edərək yeni təhsil ocağının açılışından məmnun olduqlarını bildirmiş, bu sahədə zəhməti olanlara təşəkkürlərini bildirmişlər.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**Emin BARATOĞLU,**
**AJB-nin üzvü, «Qəbələ»nin müxbir postunun rəhbəri.**

# Vergilər idarəsinə ekskursiya

***Respublikanın iqtisadi inkişafında vergilərin əhəmiyyətini nəzərə alaraq iqtisadiyyatın digər sahələrində çalışacaq mütəxəssislərin formalaşması, həm də gələcəkdə vergi ödəyicilərinin sırasına qatılacaq gənclərin maariflənidirilməsi məqsədi ilə Azərbaycancan Respublikasının Vergilər Nazirliyi tərəfindən tərtib edilmiş tədbirlər planına uyğun məktəblilər arasında hər il vergilərə aid müxtəlif müsabiqələr keçirir.***




Tədbirlər planının növbəti bəndi ilə carı ilin sentyabr-dekabr aylarında şagirdlərin vergi orqanlarına ekskursiyalarının təşkil edilməsi nəzərdə tutulub.

Qeyd olunanlara uyğun olaraq Qəbələ və Oğuz rayonlarının ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri dekabrın 8-də 10 saylı Ərazi Vergilər İdarəsinin inzibati binasına ekskursiya təşkil edilib. Şagirdlər əyani olaraq vergi orqanlarının iş prosesi, vergi orqanı əməkdaşlarının iş şəraiti, onların gördüyü işlər və vergi ödəyicilərinə göstərilən çox saylı xidmətlərlə ətraflı tanış olublar.

Şagirdləri 10 saylı ərazi vergilər inzibati binası ilə tanış edən idarənin vergi ödəyicilərinə xidmət bölməsinin rəhbəri, vergi xidməti müşaviri İntiqam Hidayətzadə onlara vergi orqanlarının iş prinsipləri, vergilərin ölkənin büdcəsinin formalaşmasında, dövlətin müəyyənləşdirdiyi iqdisadi və sosial proqramların uğurla həyata keçirilməsində rolu barədə geniş məlumat verib, bu sahə ilə bağlı sualları cavablandırıb.

**"Qəbələ"**
**Səhrab Umuyev (foto).**

# Geniş tədbir keçirilib

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində 3 dekabr Beynəlxalq Əlillər Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə çıxış edənlər BMT-nin Baş Məclisi tərəfindən 3 dekabr tarixinin "Beynəlxalq Əlillər Günü" kimi qeyd olunması haqqında Bəyannamə qəbul edilməsindən, ölkəmizdə əlillərin sosial müdafiəsinə göstərilən dövlət qayğısından, bu istiqamətdə mühüm proqramların həyata keçirilməsindən danışıblar.

Qeyd olunub ki, bu gün dunyada əhalinin təxminən 10 %-ni fiziki cəhətdən qüsurlu insanlar təşkil edir ki, onların 20%-ə qədəri inkişaf etmiş ölkələrdə yaşayır.

Ölkəmizdə isə əlillərin sayının 360 min nəfərə çatdığı vurğulanıb. Onların arasında anadangəlmə əlill olanlarla yanaşı ikinci dünya müharibəsinin, erməni soyqırımının və terrorunun, yolnəqliyyat hadisələrinin, istehsalat qəzalarının və müxtəlif xəstəliklərin nəticəsində əlil olan insanlar da olduğu diqqətə çatdırılıb.

Əlilər fiziki cəhətdən qüsurlu olsalar da onların əksəriyyətinin nəcib ürəyə, saf insani keyfiyyətlərə, yüksək bilik və bacarıqlara, xüsusi istedad və yaradıcılıq qabiliyyətlərinə malik insanlar olduqları bildirilib.

Ölkəmizdə dövlət tərəfindən bu qəbildən olan insanların sosial rifahının ildən-ilə daha da yüksəldilməsi istiqamətində mühüm addımlar atıldığı, Azərbaycanın əlillərin hüquqları haqqında BMT-nin 2006-cı ildə qəbul etdiyi Konvensiyaya qoşulduğu tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Beynəlxalq Əlillər günü münasibətilə keçirilən tədbirin sonunda xüsusi qayğıya ehtiyacı olan uşaqlara və əlillərə bayram hədiyyəsi paylanıb.

**Hökümə İSMAYILOVA,**
**mərkəzin işçisi.**